# *Dmitri SAVELYEV:* "Rusiya-Azərbaycan iqtisadi əlaqələri sürətlə inkişaf edir"

**Ötən həftə Bakıda Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya Federasiyası Hökumətinin sədr müavini Aleksey Overçukun sədrliyi ilə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 22-ci iclası keçirildi. Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, RF Dövlət Dumasının deputatı Dmitri Savelyev AZƏRTAC-ın müxbiri ilə söhbətində iclasın yekunlarını və iki ölkənin iqtisadi sahədə qarşılıqlı fəaliyyətinin müasir tendensiyalarını şərh edib.**





*- Dmitri İvanoviç, Azərbaycan ilə Rusiya arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 22-ci iclasının yekunlarına dair hansı nəticələrə gəlmək olar? Bu gün iqtisadi əməkdaşlığın hansı aspektləri ölkələrimiz üçün daha mühümdür? Onların dəstəklənməsi və inkişafı perspektivləri necədir?*

- İclasın yekunlarına dair çıxarılan əsas nəticə ondan ibarətdir ki, bizim üçün qarşılıqlı maraq doğuran bütün sahələrdə konstruktiv dialoqa və birgə layihələrin hərtərəfli inkişafına hazırıq. Rusiya ilə Azərbaycan arasında ticarət və energetika, sənaye və kənd təsərrüfatı, logistika və nəqliyyat, turizm və mədəniyyət, təhsil və humanitar sahələrdə əməkdaşlıq fəal şəkildə inkişaf edir. Hər iki tərəfdən səmərəli dövlət dəstəyi ilə investisiya əlaqələri də güclənir. Komissiyanın iclasında vurğulanıb ki, bu gün Rusiya Azərbaycan üçün ən mühüm investorlardan və ən böyük ticarət tərəfdaşlarından biridir. Neft ixracında isə ən böyük tərəfdaşdır. Ekspertlərin fikrincə, ötən il iki ölkə arasında ticarət dövriyyəsi rekord rəqəmlərə çatıb və bu tendensiya davam edir. Ərzaq və kənd təsərrüfatı xammalı, neft, metal və plastik məhsulların qarşılıqlı ticarəti də artır. Üstəlik, bu ilin yayına qədər qarşılıqlı hesablaşmaların təxminən dörddə üçü ilə həyata keçirilən milli valyutalar əsasında ticarət də inkişaf edir. İkitərəfli yükdaşımaları nəzərəçarpacaq dərəcədə artıb və turist axını intensiv şəkildə davam edir.

*- Rusiya və Azərbaycan biznesinin qarşılıqlı investisiya üzrə əməkdaşlığının hansı nəticələrini daha əhəmiyyətli hesab etmək olar və sizcə, bu sahədə yeni istiqamətlər hansılardır?*

- Azərbaycanda Rusiya biznesi ilə əczaçılıq və neft-kimya, qida sənayesi və şərabçılıq, mədən sənayesi və tikinti materiallarının istehsalı, avtomobil sənayesi və avadanlıqlara texniki xidmət sahələrində əməkdaşlığın uğurlu nəticələri qeydə alınıb. Xüsusilə "Lada" və "Qazel", "KamAZ" və "Ural" avtomobilləri üçün servis dəstəyi göstərilir. Bununla yanaşı, perspektivli sahələr arasında gəmiqayırma, metallurgiya, turizm və digərlərini qeyd etmək lazımdır. Öz növbəsində Azərbaycan sahibkarları Rusiyada aqrobiznes, meşə təsərrüfatı və turizmə, o cümlədən Xəzər dənizinə fəal şəkildə sərmayə qoyurlar. Ekspertlər gələcəkdə yüksək texnologiyalı istehsala və Rusiyanın İT sektoruna Azərbaycandan sərmayə qoyulacağını da gözləyirlər.

*- Rusiya və Azərbaycanın regionları arasında əməkdaşlıqda hansı tendensiyaları qeyd edə bilərsiniz?*

- Bu ilin əvvəlində Stavropolda keçirilən genişmiqyaslı Rusiya-Azərbaycan Regionlararası Forumu bu kontekstdə çox uğurlu başlanğıc oldu. Artıq 2024-cü il bir çox yüksəksəviyyəli görüşlər və səfərlər, əməkdaşlıq sazişləri və perspektivli razılaşmalar ilə yadda qalıb. Söhbət təkcə iri iqtisadi forumlarda qarşılıqlı iştirakdan deyil, həm də regional nümayəndə heyətlərindən gedir ki, ilin əvvəlindən artıq 10-dan çox tədbir keçirilib. Mübaliğəsiz demək olar ki, müxtəlif regionlardan olan yüzlərlə Rusiya şirkətinin nümayəndələri Azərbaycanla əməkdaşlıq imkanları ilə tanış olublar. Bu yaxınlara aid bir misal çəkim: Kirov rayonundan olan doqquz iri istehsalat şirkətinin nümayəndələri Bakıya işgüzar səfərlər zamanı ixracın təşkilinə yönəlmiş onlarla görüş keçiriblər. Həmçinin Krasnoyarsk diyarının, Çuvaşiya, Novosibirsk və Ulyanovsk vilayətlərinin, Altay diyarının və Rusiyanın digər vilayətlərinin nümayəndələri bu yaxınlarda Bakıda olub, Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə böyük maraq göstəriblər.

Biznes sahəsində qarşılıqlı fəaliyyətin daha bir müasir formatı - videokonfranslar da aktiv fəaliyyət göstərir. Buna misal olaraq, Rusiya və Azərbaycanın Ticarət nümayəndəliklərinin iyul ayında Oryol vilayətinin biznes nümayəndələri ilə onlayn görüşünü göstərmək olar.

Rusiya və Azərbaycanın biznes nümayəndələrinin müxtəlif sahələr üzrə böyük sərgilərdə iştirakını da xatırlatmaq lazımdır. Belə ki, bu yaxınlarda Yekaterinburqda keçirilən "İnnoprom-2024" beynəlxalq sərgisində Azərbaycan iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Səfər çərçivəsində Rusiyada Ələt Azad İqtisadi Zonasına investisiya imkanlarının təqdimatı olub.

Uzun müddətdir ki, Rusiya və Azərbaycan xalqları arasında mehriban qonşuluq, səmimi dostluq və qarşılıqlı faydalı əməkdaşlıq mövcuddur. Bizim vəzifəmiz isə həm yaxşı münasibətlərimizi, həm də işgüzar əlaqələrimizi hərtərəfli dəstəkləmək və inkişaf etdirməkdir.

Azərbaycan.- 2024.- 16 avqust (№ 174).- S.3.